# Milli Teatr "Qarabağnamə" tamaşası ilə Şəkidə çıxış etdi

*Oktyabrın 3-ü Xalq yazıçısı, görkəmli nasir-dramaturq, Azərbaycan ədəbiyyatının klassiki İlyas Əfəndiyevin anım günüdür. Həqiqətin zəfər çaldığı günümüzün gerçəkliyidi ki, böyük sənətkarın anım günü onun canı-qanı qədər sevdiyi, doğma, əziz Qarabağımızın erməni faşizmindən azad edildiyi, Azərbaycan bayrağının Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda, Xankəndidə dalğalanmağa başladığı bir vaxta təsadüf edir. Yəni görkəmli yazıçının ruhunun şad olduğu, arzularının gerçəkləşdiyi günlərə. Qarabağın azadlıq yolu Azərbaycan xalqının və dövlət başçısının iradəsi, xalq-ordu birliyinin monolit gücü ilə yanaşı, həm də İlyas Əfəndiyevin əbədiyaşar əsərlərinin ideya-məfkurə aydınlığından keçir. Böyük sənətkar doğma Qarabağla nəfəs alırdı. Qarabağın tarixi yerini, məqamını anladırdı. Qarabağın azadlıq gününün əsərlərini yazırdı. O istəklər reallaşıb. Qarabağ Azərbaycandır! Böyük sənətkarın ruhu şad olsun. Təbii haldır ki, bu tarixi günlərdə Milli Teatrımız məhz böyük sənətkarın "Qarabağnamə" əsərinə üz tutub, qastrol səfərlərinə "Qarabağnamə" tamaşasıyla çıxıb.*



Mədəniyyət Nazirliyi Ümummilli lider Heydər Əliyevin 100, Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində regionlara təşkil olunan qastrol səfərlərini davam etdirir.

Qastrol aksiyasının məqsədi regionlarda mədəni həyatın fəallaşdırılması, əhalinin, xüsusilə də gənclərin asudə vaxtının keyfiyyətinin yüksəldilməsi, yerli yaradıcı kollektivlərlə daha sıx ünsiyyət və faydalı təcrübə mübadiləsinə şərait yaratmaqdır.

Layihə çərçivəsində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı sentyabrın 26-da "Qarabağnamə" tamaşası ilə Şəki Dövlət Dram Teatrında çıxış edib.

Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyovdur.

Səhnə əsərində XVIII əsrdə Qarabağ xanlığının mərkəzi olan Şuşada baş vermiş tarixi hadisələrdən bəhs olunur. Tamaşada İbrahim xan ictimai-siyasi, ailə-məişət hadisələri burulğanında mürəkkəb, təzadlı, faciəvi xarakter kimi təsvir edilir. Məmləkətin xanlıqlara parçalanması, düşmənə qarşı gizli ittifaqın olmaması məğlubiyyətin və faciənin əsas amilləridir.

Tamaşada rolları Xalq artistləri Kazım Abdullayev, Firəngiz Mütəllimova, Rafiq Əzimov, Hacı İsmayılov, Əli Nurzadə, əməkdar artistlər Elşən Rüstəmov, Məsmə Ağaverdiyeva, Kazım Həsənquliyev, Elxan Quliyev, Elşən Cəbrayılov, Elnar Qarayev, Əminə Babayeva, aktyorlar İlyas Əhmədov, Ramin Şıxəliyev, Ləman İmanova, Cavidan Novruz, Firuzə Balayeva, Nəzrin Abdullayeva, Məhsəti Tahirzadə, Elsevər Rəhimov və Tural İbrahimov ifa edib.

Səhnə əsərinin quruluşçu rəssamı İsmayıl Məmmədov, geyim rəssamı Aygün Mahmudova, işıq üzrə rəssamı Rafael Həsənov, musiqi tərtibatçısı Həmid Kazımzadədir.

Tamaşada Xalq artistləri Polad Bülbüloğlu və Vasif Adıgözəlovun əsərlərindən istifadə olunub.

Qeyd edək ki, İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri əsasında tamaşa ilk dəfə 1996-cı ildə nümayiş olunub. Tamaşa böyük müvəffəqiyyət qazanıb və 1997-ci il sentyabrın 20-də Ümummilli lider Heydər Əliyev Milli Dram Teatrının səhnəsində tamaşanı maraqla izləyib. Tamaşaya baxdıqdan sonra yaradıcı heyətlə görüşdə Heydər Əliyev əsəri yüksək qiymətləndirib, onun təbliğinin vacibliyini bildirib.

